**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**Akademik H.Ə. ƏLİYEV adına COĞRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**HƏSSƏN ZENDEHDEL MƏHƏMMƏD OĞLU**

# İRAN İSLAM RESPUBLİKASININ ŞİMAL-QƏRB OSTANLARINDA TURİZMİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

İxtisas – 5401.01 – İqtisadi coğrafiya

Coğrafiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunan dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2014**

**Dissertasiya işi AMEA akad. H.Ə. Əliyev adina Coğrafiya İnstitutunda yerinə yetirilmişdir**

**Elmi rəhbər:** Coğrafiya üzrə elmlər doktoru **Z.N.Eminov**

**Rəsmi opponentlər**: Coğrafiya üzrə elmlər doktoru, professor **T.G.Həsənov**

Coğrafiya elmləri namizədi **Z.T.İmrani**

**Aparıcı təşkilat:** ADPU-nun "Coğrafiya və ÇQH" fakultəsinin **"İqtisadi coğrafiya və CTM" kafedrası**

Müdafiə 14 mart 2014-cü il saat 14.00-da Azərbaycan Milli Elmlər Akademiyası akademik H.Ə. Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən D01.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

*Ünvan: Az. 1143, Bakı, H.Cavid prospekti 31, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akademik H.Ə. Əliyev adına Coğrafiya İnstitutu.*

Dissertasiya ilə AMEA akademik H.Ə. Əliyev adına Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq olar.

Möhürlə təsdiq olunmuş rəyləri iki nüsxədə bu ünvana göndərməyiniz xahiş olunur: Az. 1143, Bakı, H.Cavid prospekti 31, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akademik H.Ə. Əliyev adına Coğrafiya İnstitutu.

Avtoreferat 12 fevral 2014-cü ildə göndərilmişdir.

**D01.091 DŞ-nın elmi katibi,**
**coğrafiya üzrə fəlsəfə doktoru,**
**dosent:** **Həsənov M.S.**

## GİRİŞ

**Mövzunun aktuallığı.** İran İslam Respublikasının (İİR) əlverişli təbiəti və tarixi-mədəni abidələri, turizmin əsasını təşkil edən infrastrukturun mövcud vəziyyəti bu sahənin inkişafını təmin edir. İranın ərazisində müxtəlif təbii şəraitə malik ərazilərin olması, dəniz sahilləri, dağlar, çöllər və səhralara uyğun olan tarixi binalar, cəmiyyətin tarixinin müxtəlif dövrlərini əks etdirən mədəniyyət qalıqları, qədim abidələr, qədim tarixə malik dini və mədəniyyət nümunələri ölkənin həm beynəlxalq səviyyədə çox zəngin turizm potensialına malik olduğundan xəbər verir, həm də ölkədaxili turizmin inkişaf etdirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Mövcud əlverişli təbii-coğrafi şərait, mühüm əhəmiyyət kəsb edən təbiət abidələri, zəngin tarixi-mədəni və arxeoloji abidələr, qədim adət-ənənələrin qorunması göstərir ki, İranın şimal-qərb hissəsində yerləşən ostanlar da turizmin inkişafı üçün geniş imkanlara malikdir. Bu sahəyə sərmayə yatırmaq və nəticə etibarilə böyük məbləğdə gəlir əldə etmək olar.

Daxili turizm həm ölkənin və onun mühüm tərkib hissəsi olan şimal-qərb ostanlarının sosial-iqtisadi inkişafında, onun dünya səviyyəsində tanınmasında, həm də insanların mədəni-ictimai fikrinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Daxili turizmin əsas əhəmiyyəti təsərrüfatın inkişafı və iqtisadi əlaqələrin qurulmasında, qeyri-istehsal sahələrinin əhəmiyyətinin yüksəlməsində, Ümumi Milli Məhsulun formalaşmasında, yeni iş yerlərinin açılmasında, infrastruktur şəbəkəsinin genişlənməsində özünü göstərir.

İctimai-mədəni sahəyə gəldikdə isə turizm bir ölkə vətəndaşının həyat tərzi, inancı, mədəniyyəti, ölkənin müxtəlif regionlarının adət-ənənələri barədə biliklər, öz mədəniyyət tarixi və milli keçmişi barədə məlumatlar əldə etməyə imkan verir. Digər tərəfdən isə turizim asudə vaxt keçirmək üçün ən əlverişli, faydalı və sağlam modeldir.

Turizmin inkişafı ölkənin tərəqqisi üçün zəruri olan ən əhəmiyyətli sahələrdən biri hesab olunur. Daxili turizmin inkişafı bu sahənin ən mühüm tələblərindən biri olan infrastrukturun yüksək səviyyədə qurulmasını tələb edir. Belə ki, dünya standartlarına cavab verən yolların çəkilməsi, mehmanxanaların və istirahət mərkəzlərinin tikilməsi, keyfiyyətli xidmət və ictimai təhlükəsizliyin təmin edilməsi ölkədə turizmin inkişafında əhəmiyyətli rol oynaya bilər. Bütün bunlar eyni zamanda bir ölkənin ictimai-iqtisadi və sosial-mədəni inkişafı üçün də əhəmiyyətlidir. Ona görə də turizmin əhəmiyyəti, bu sahədən əldə edilən gəlirlər, təsərrüfatın inkişafı, onun sahə və ərazi strukturunun yenidən qurulmasında rolu haqqında, xüsusilə də xarici turizmin əhəmiyyəti haqqında elmi-tədqiqat

işlərinin aparılması, bu sahənin səmərəli ərazi təşkili yollarının müəyyən edilməsi çox böyük praktiki və elmi-metodiki əhəmiyyət kəsb edir. Qeyd olunan məsələlərin hər biri əlverişli şərait yarandıqda ölkənin və onun regionlarının iqtisadi, ictimai və mədəni inkişafına səbəb olan amilə çevrilir.

Son 60 il ərzində ölkənin turizm sahəsindən xeyli gəlir əldə etməsinə və bir neçə səmərəli planların hazırlanmasına baxmayaraq hələ də bu sahənin strateji planı tam şəkildə qəbul edilməmişdir. İqtisadiyyatın və mədəniyyətin inkişafı istiqamətində dövlətin tərtib etdiyi beş illik proqramlarda (1989-1993, 1994-1999 və 2000-2004-cü illər) turizm sahəsinə də geniş yer verilmişdir.

İranın şimal-qərbində yerləşən Ərdəbil, Qərbi Azərbaycan və Şərqi Azərbaycan ostanları ölkənin böyük bir hissəsini əhatə edir. Bu Azərbaycan əyalətlərinin təbii-coğrafi imkanları, ecazkar təbiəti və əlverişli iqlim şəraiti geniş turizm imkanlarının olduğunu göstərir.

Ərdəbil, Qərbi Azərbaycan və Şərqi Azərbaycan ostanlarının təbii, tarixi, dini, mədəni imkanlarından turizmin inkişafı üçün səmərəli istifadə etmək qarşıda duran əsas praktiki və elmi-nəzəri vəzifələrdən biridir. Bu sahənin inkişafı üçün ölkə səviyyəsində və onun ayrı-ayrı regionları üzrə qanunvericilik bazasının yaradılması və zəruri olan mühüm qərarların qəbul edilməsi lazımdır.

**Tədqiqat işinin obyekti** İran İslam Respublikasının şimal-qərbində yerləşən Şərqi Azərbaycan, Qərbi Azərbaycan və Ərdəbil ostanlarında turizm təsərrüfatı, onun inkişafına təsir edən təbii-coğrafi və iqtisadi amillər, turizm təsərrüfatının iqtisadi-coğrafi inkişaf problemləridir.

Şərqi Azərbaycan, Qərbi Azərbaycan və Ərdəbil ostanları İran İslam Respublikasında böyük ərazi tutan tarixi-coğrafi regiondur. Bu region $35^0 58^/$ - $39^0 46^/$ şimal enlikləri ilə $43^0 44^/$ - $48^0 56^/$ şərq uzunluqları arasında yerləşir. İranın ərazisinin 6,5 faizini təşkil edən ostanların ümumi sahəsi 106971,7 $km^2$-dir.

**Tədqiqat işinin predmeti** İranın Şərqi Azərbaycan, Qərbi Azərbaycan və Ərdəbil ostanlarında turizm təsərrüfatının müasir vəziyyəti və inkişaf yollarının müəyyən edilməsidir.

**Problemin öyrənilməsi səviyyəsi.** İran İslam Respublikasının təbii şəraiti, təbii ehtiyatları, onlardan istifadə edilməsinin əsas istiqamətləri, təsərrüfatın strukturu, onun mühüm tərkib hissəsi olan turizm təsərrüfatının ərazi təşkili haqqında geniş tədqiqatlar aparılmışdır.

Turizm təsərrüfatının səmərəli ərazi təşkili haqqında İran İR-də Ə.Şəham, H.D.Fərahani, H.Zamani, Ə.M.Fərəczadə, Ç.R.Heydəri,

M.Kazimi, M.M.Kərrubi, Z.M.Zahidi, M.Bilali, ABŞ və Qərbi Avropada Katlen Lingle Pond, G.E.Mitçel, F.Maykl, Kristine A.Peter, Mason D.Airey, S.Conson və b. alimlər tədqiqat işləri aparmışlar. Azərbaycan alimlərindən B.Ə.Budaqov, A.H.Salmanov, Ə.Q.Əlirzayev, Ə.C.Əyyubov, C.A.Məmmədov, H.B.Soltanova, V.S.Dərgahov və b.-nın bu sahədə tədqiqat işləri vardır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın aparılmasında məqsəd regionun təbii, tarixi, mədəni və sənət nümunələrindən ibarət olan və turizm üçün əhəmiyyət kəsb edən imkanlarını tanıtmaq, bu sahənin inkişafını müəyyən edən infrastrukturu və turist qəbul etmək imkanlarını öyrənmək, bu sahənin inkişafı sahəsində olan problemləri müəyyən etməkdir.

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

► turizmin inkişafına imkan verən təbii-coğrafi və tarixi-mədəni potensialın qiymətləndirilməsi, onlardan istifadə edilməsi istiqamətlərinin müəyyən olunması;

► regionun sosial-iqtisadi inkişafında turizm təsərrüfatının rolunun artırılması yollarının müəyyən edilməsi;

► turizm təsərrüfatında əmək ehtiyatlarından istifadə edilməsinin müasir vəziyyətinin təlil edilməsi, onlardan səmərəli istifadə yollarının müəyyən edilməsi;

► bu sahədən əldə edilən gəlirlərin artırılması yollarının müəyyən edilməsi;

► regionda daxili turizmin inkişaf etdirilməsi yollarının müəyyənləşdirilməsi, bu sahənin inkişafında mühüm rol oynayan infrastrukturun müasir tələblər səviyyəsində qurulması yollarının öyrənilməsi;

► bu sahənin inkişafı üçün tələb olunan proqramların və layihələrin hazırlanması.

**Tədqiqatın nəzəri və metodoloji əsaslarını** təsərrüfatın inkişafı və yerləşməsi xüsusiyyətləri, o cümlədən turizm təsərrüfatının ərazi təşkili haqqında İran İslam Respublikası və xarici ölkələrin alimləri tərəfindən işlənilmiş nəzəriyyələr təşkil edir. Tədqiqat prosesində Azərbaycan alimlərinin elmi əsərlərindən geniş istifadə edilmişdir.

Tədqiqatın aparılması zamanı statistika, müqayisəli təhlil, ümumiləşdirmə, kartoqrafik, tarixilik, sistemli yanaşma, modelləşdirmə, çöl-tədqiqat, qruplaşdırma üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işində İranın şimal-qərb hissəsində yerləşən Şərqi Azərbaycan, Qərbi Azərbaycan və Ərdəbil ostanları Statistika İdarələrinin məlumatları, qanunvericilik və normativ

aktlar, həmçinin turizmin ərazi təşkilinin praktik üsul və yolları istifadə edilmişdir. İşin ilkin informasiya bazasını müəllif tərəfindən aparılan iqtisadi-coğrafi tədqiqatların nəticələri təşkil edir.

Bundan başqa İranın elmi-tədqiqat institutları, nazirlik və komitələrin materiallarından istifadə edilmişdir. İqtisadi və sosial inkişaf sahəsində Kompleks İnkişaf Proqramları bu sahənin sistemli şəkildə öyrənilməsinə və inkişaf proqnozlarının verilməsinə kömək edir.

**Müdafiə olunan müddəalar:**

- Təbii-coğrafi, sosial-iqtisadi və tarixi-mədəni amillərin turizm təsərrüfatının inkişafında əhəmiyyətinin qiymətləndirilməsi;
- Şərqi Azərbaycan, Qərbi Azərbaycan və Ərdəbil ostanlarında turizm təsərrüfatının müasir vəziyyəti, fəaliyyətində olan problemlərin həllinin əsas istiqamətləri;
- Regionda beynəlxalq turizmin inkişafı, infrastruktur şəbəkəsinin müasir tələblər səviyyəsində qurulması üçün onun səmərəli ərazi təşkilinin və strukturunun təkmilləşməsi yolları;
- Daxili turizmin inkişaf etdirilməsi yollarının müəyyən edilməsi.

**Tədqiqat işinin elmi yeniliklərinə aşağıdakılar aiddir:**

► İranın Şərqi Azərbaycan, Qərbi Azərbaycan və Ərdəbil ostanlarında turizm təsərrüfatının kompleks inkişafı üçün zəruri olan təbii-iqlim, iqtisadi-sosial və tarixi-mədəni ehtiyatlar qiymətləndirilmişdir;

► Ostanlarda olan turizm ehtiyatlarının, bu sahənin inkişafına imkan verən mərkəzlərin yeri, onlardan istifadə edilməsinin müasir vəziyyəti və yeni turizm mərkəzləri yaradılmasında mövcud potensialdan istifadə yolları müəyyənləşdirilmişdir;

► Ostanlarda fəaliyyət göstərən turizm təsərrüfatının inkişafının müasir problemləri müəyyən edilmiş, turizmin xidmətlərinə beynəlxalq tələblərin artmasını nəzərə alaraq bu sahənin strukturunun təkmilləşdirilməsi yolları verilmişdir;

► Turizm təsərrüfatının inkişafında xüsusi əhəmiyyət kəsb edən yeni mənbələr və potensial imkanlar öyrənilmiş, onlardan istifadə olunması üçün elmi-praktiki əhəmiyyəti olan təkliflər və tövsiyyələr hazırlanmışdır.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Dissertasiya işində müəllif tərəfindən irəli sürülən təkliflər, tədqiqat zamanı əldə edilmiş elmi nəticələr regionda turizmin idarə edilməsi, proqramların işlənib hazırlanması, onların yerinə yetirilməsinin təkmilləşdirilməsi üçün praktik əhəmiyyətə malikdir.

Bir neçə il ərzində İran İslam Respublikasının regionları, o cümlədən şimal-qərb ostanlarının turizm potensailı barədə bir sıra layihələrin tərtib edilməsində dissertasiyada olan materiallardan, əldə edilmiş nəticələrdən

istifadə edilmişdir.

Tədqiqatın nəticələri, turizmin imkanlarının qiymətləndirilməsi və proqnozların verilməsi haqqında məlumatlar bu sahədə normativ-hüquqi göstəricilərin işlənib hazırlanması zamanı istifadə edilə bilər. Dissertasiya işində olan materiallar və alınmış nəticələr turizm sahəsində mütəxəssislərin hazırlanması və müvafiq ali təhsil müəssisələrində nəzəri praktik cəhətdən faydalı ola bilər.

**Tədqiqat işinin aprobasiyası.** İranın şimal-qərbində yerləşən Şərqi Azərbaycan, Qərbi Azərbaycan və Ərdəbil ostanlarında turizm təsərrüfatının müasir vəziyyəti, onun ərazi təşkilini müəyyən edən təbii-iqtisadi amillərin əhəmiyyəti, inkişafında olan problemlər, səmərəli ərazi təşkilinin əsas istiqamətləri sahəsində aparılmış tədqiqatların nəticələri aşağıdakı konfranslarda dinlənilmişdir:

► Azərbaycan Coğrafiya Cəmiyyətinin "Müasir geosistemlərin regional-coğeafi problemləri" mövzusunda konfrans, Bakı, 2012;

► Professor M.A.Müseyibovun anadan olmasının 85 illik yubileyinə həsr olunmuş "Qloballaşma və coğrafiya" mövzusunda beynəlxalq elmi-praktiki konfrans, Bakı, 2012;

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işinin həcmi 159 səhifə olmaqla, Girişdən, 3 fəsildən, əldə edilmiş nəticə və təkliflərdən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin əyaniliyini artırmaq üçün 5 cədvəl, 4 xəritə-sxem verilmişdir. Ədəbiyyat siyahısında 112 mənbə vardır.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqat işinin obyekti, predmeti, məqsəd və vəzifələr müəyyən edilir, dissertasiyanın nəzəri və metodoloji əsasları, elmi yenilikləri və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın birinci fəsli "**Turizm təsərrüfatının öyrənilməsinin nəzəri-metodoloji əsasları və onun inkişafının təbi-coğrafi potensialının**" tədqiqinə həsr edilmişdir.

Hazırda dünyada inteqrasiya prosesləri genişlənir, ayrı-ayrı regionlar və ölkələr arasındakı əlaqələr, insanların mütəhərrikliyi artır. Əhalinin həyat səviyyəsinin yüksəlməsi ilə yanaşı, xidmət sferası obyektlərinin inkişafına diqqət yönəldilir. Bu sahələrdə çalışanların sayının artması prosesi müşahidə olunur. Belə vəziyyətdə insanların istirahətinin səmərəli təşkili vacib vəzifə kimi qarşıda durur. Bu vəzifənin həll edilməsi üçün turizm təsərrüfatı inkişaf etdirilir, xidmət obyektləri şəbəkəsi, nəqliyyat-

kommunikasiya sistemi təşkil olunur. Asudə vaxtın səmərəli keçirilməsinə əlverişli şərait yaradılması, bu zaman görülən işlər, müasir infrastruktur şəbəkəsi cəmiyyətin maddi-mənəvi və iqtisadi inkişafında əsaslı dəyişikliyə səbəb olur. Şəhərlərin daxilində və onların ətraf zonalarında istirahət mərkəzləri təşkil olunur. Ölkələrin sosial-iqtisadi səviyyəsi yüksəldikcə əhalinin sağlamlığının qorunmasına, istirahətinin təşkilinə qoyulan tələblər artır, turizmin təşkilində iştirak edən ölkələr və insanların sayı artır.

Dissertasiyada turizmin əhalinin sağlamlığının qorunmasında rolu, son vaxtlarda bu sahənin inkişafına ayrılan vəsaitin artırılmasının vacibliyi və bu sahədə həyata keçirilən tədbirlərin əhəmiyyəti göstərilir. Turizm obyektləri insanlara bir neçə formada xidmət göstərir. Gündəlik gəzintilər zamanı şəhər əhalisi ətraf zonalarda, meşələrdə, yaşıllıqlarda, dağlarda, sahil boyu ərazilərdə təbii-rekreasiya ehtiyatlarından istifadə edir. Bu ehtiyatlar yerli əhalinin tələbatını ödəyir. İkinci növ turizm ehtiyatları həftə sonu istirahət günlərində əhalinin istifadə etdiyi mərkəzlərdir. Bu məqsədlə istifadə edilən turizm mərkəzləri şəhərlərin ətrafında, ondan 2-3 saatlıq məsafədə yerləşir. Mövsümlər üzrə istifadə edilən turizm mərkəzlərinin əhaliyə yüksək səviyyədə xidmət göstərilməsi üçün üzun müddət turistləri qəbul etmək imkanına malik olur.

Turizm təsərrüfatının fərqləndirici xüsusiyyətlərindən biri bu sahənin xidmətlərindən istifadənin mövsümi xarakterli olmasıdır. Bu sahənin mövsümiliyini aradan qaldırmaq üçün cəlb edilən mərkəzlərin sayının artırılması, göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi, müəyyən güzəştlərin tətbiq edilməsi zəruridir.

İran İR-də XX əsrin 90-cı illərindən sonra turizm təsərrüfatının inkişafı, bu sahəyə cəlb edilənlərin sayının artımı, göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi, eyni zamanda turizm təsərrüfatının öyrənilməsi sahəsində yeni mərhələ başlanmışdır.

Ölkənin şimal sərhədlərində yeni müstəqil dövlətlərin yaranması iqtisadi, sosial-mədəni əlaqələrlə yanaşı, turizm əlaqələrinin də genişlənməsinə, ölkəyə gələn və buradan gedən turistlərin sayının artmasına səbəb olmuşdur.

Ərdəbil, Qərbi Azərbaycan və Şərqi Azərbaycan ostanları ilə Azərbaycan Respublikası arasında da eyni dilə, dinə malik bir millətin yaşaması onların arasında əlaqələrin qurulmasına imkan verir. Bu iki ərazi arasında turizm əlaqələrinin genişlənməsi üçün yeni addımlar atılmalı, turistlərin ölkəyə cəlb edilməsi üçün bütün imkanlar səfərbər edilməlidir. Sərhədlərdən keçərkən sadələşdirilmiş gömrük keçidi, tətbiq edilən sərhəd-

keçid rüsumlarının azaldılması ölkəyə turist axımının artmasına xidmət göstərən amillərdir.

Dissertasitada turizm təsərrüfatının inkişafı, ölkəyə gələn turistlərin sayının artması prosesində gedən müsbət nəticələr göstərilir, bu sahədə olan meyillərin inkişafı istiqamətində həyata keçirilməsi zəruri olan tədbirlər müəyyən olunur.

Ölkədaxili turizmin inkişafı, şəhər sakinlərinin asudə vaxtlarını səmərəli keçirməsi üçün maliyyə vəsaitinin ayrılması, xidmət obyektləri şəkəbəsinin yaradılması lazımdır. Əhalinin maddi gəlirlərinin artması bu sahənin xidmətlərindən istifadə edənlərin sayının artmasına gətirib çıxarır.

Son vaxtlarda turizm mühüm iqtisadi amil olaraq ölkələrin inkişafında, əhalinin məşğulluğunun təmin edilməsində, infrastruktur şəbəkəsinin yaradılması və fəaliyyətində daha çox əhəmiyyət kəsb edir. Ona görə vaxt keçdikcə yaradılan turizm obyektlərinin şəbəkəsi genişlənir, göstərilən xidmətlərin səviyyəsi yüksəlir.

Bu sahə təsərrüfatın digər sahələrinə nisbətən insan potensialından səmərəli istifadə edilməsinə imkan verir, bu sahənin infrastruktur şəbəkəsi genişlənir, cəlb edilən işçilərin sayı daim çoxalır. Onların sayı ölkəyə gələn turistlərin sayının artması prosesində də yüksələ bilər. Bu sahənin inkişafı regionlar üzrə iqtisadi, sosial və mədəni potensialının bir mərkəzdə cəmlənməsinin qarşısını alır. İri sənaye mərkəzləri və onların ətraf zonaları ilə yanaşı turizm təsərrüfatında istifadə edilməsi mümkün olan dağətəyi, yüksək dağlıq və sahil rayonlarında yeni təsərrüfat obyektlərinin yaradılmasına imkan verir. Nəticədə rayonların sosial-iqtisadi və mədəni inkişafı üçün maliyyə mənbələri yaranır, onların mərkəzi hökumətdən asılılığı azalır.

Ölkəyə xaricdən turistlərin gəlməsi, onların ölkədə olan xidmət, ticarət, nəqliyyat, kustar sənaye sahəsinin məhsullarından istifadə edilməsi əmtəə dövriyyəsinin yüksəlməsinə, əhalinin və turistlərə xidmət göstərən şirkətlərin gəlirlərinin artmasına səbəb olur.

Turizm təsərrüfatının inkişafı prosesində xarici ölkələrlə əlaqələr genişlənir, iqtisadi-mədəni əlaqələr qurulur, onun tanıdılması, tarixi keçmişinin təbliğ edilməsi asanlaşır, dünyada baş verən dəyişikliklər, texniloji yeniliklər, xidmət sahələrində olan tələblər az vaxtda ölkədə tətbiq edilir.

Turistlərə göstərilən xidmətlərin müasir tələblər səviyyəsində qurulması, qiymətlərin münasib olması, turizm mərkəzlərinin əlverişli İCM-də yerləşməsi cəlb edilən turistlərin sayının artmasına müsbət təsir

göstərməklə yanaşı daxili turizmin formalaşmasına və inkişafına da şərait yaradır.

Dissertasiyada göstərilir ki, turizm təsərrüfatının inkişaf etdiyi regionların sosial-iqtisadi və mədəni inkişafına əlverişli şərait yaranır, bu ərazilərdə olan təbii-coğrafi şərait və ehtiyatlar, tarixi-mədəni, arxeoloji, memarlıq abidələri səmərəli istifadə edilir, onları qorumaq mümkün olur.

Turizmin inkişafı ayrı-ayrı regionlara cəlb edilən yerli və xarici sərmayələrin artmasına, onlardan səmərəli istifadə edilməsinə, az vaxtda gəlir əldə edilməsinə imkan verir.

İnsanların əmək potensialının bərpa olunması, daxili turizmin inkişafına şərait yaradılması, cəmiyyətin sağlamlığının bərpa olunması, mədəniyyətin yayılmasına kömək gəstərilməsi ölkələrarası əməkdaşlığın genişlənməsi işlərində turizm əhəmiyyətli rol oynayır. Turizm təsərrüfatının inkişafı prosesində aşağıdakı müsbət nəticələr əldə edilir: 1) Milli gəlirlər artır, regionlara xarici investisiyalar cəlb olunur. Bu sahənin inkişafı üçün əksər hallarda yerli sərmayələrdən də istifadə etmək olar; 2) Regionların inkişafını sürətləndirmək, gəlirləri regionlar və yerli əhali təbəqələri arasında və təsərrüfat sahələri üzrə nisbətən bərabər bölüşdürmək olar; 3) ölkədə və onun regionlarında turizmə xidmət edən sənaye sahələrində məhsul istehsalını artırmaq. Bu sahə yüngül və yeyinti sənayesinin, tikinti sənayesinin və onunla əlaqəli olan əksər sahələrin inkişafına şərait yaradır və təkan verir.

**Şərqi Azərbaycan** ostanının mərkəzi Təbriz şəhəridir. Əhər, Bənat, Bostanabad, Sərab, Şəbistər, Kəleybər, Marağa, Mərənd, Miyanə, Heris və Həştrud kimi şəhərlər bu ostanın tərkibinə daxildir. **Qərbi Azərbaycan** ostanının mərkəzi Urmiya şəhəridir. Burada Xoy, Maku, Səlmas, Miyandoab, Sərdəşt, Təkab, Mahabad, Bukan, Piranşəhr, Şahindej və Nəqdə şəhərləri vardır. **Ərdəbil** ostanının mərkəzi Ərdəbil şəhəridir. Xalxal, Meşkinşəhr, Germi, Biləsuvar, Muğan, Farsabad, Nir və sair şəhərlər bu ostanın daxinində yerləşir.

Şərqi Azərbaycan, Qərbi Azərbaycan və Ərdəbil ostanları şimalda Araz, Bolqar və Astara çayları, Talış dağları ilə Azərbaycan Respublikasından ayrılır. Region qərbdə Türkiyə Respublikası, cənub-qərbdə İraq Respublikası, cənubda ölkə daxilində ayrılan Zəncan və Kürdüstan ostanları, şərqdə Gilan ostanı ilə həmsərhəddir.

Ostanların ərazisinin xeyli hissəsini dağlar tutur. Onlara Ərsəbaran, Savalan, Səhənd, Mişovdağ, Qaradaş dağ silsilələri aiddir. Regionda olan ən yüksək zirvələr Savalan (4844 m) və Səhənd dağlarıdır (3722 m). Burada yüksələn dağların geniş hamar ərazilərində qışda uzun müddət

davam edən qarlı günlərin olması, qarın qalın örtüyü, regionun relyef-geomorfoloji xüsusiyyətləri qış-idman növlərinin yaradılmasına imkan verir.

Səhənd dağının ətəklərində xizək-idman növlərinin inkişafı üçün infrastruktur obyektləri yaradılması lazım gəlir. Burada xizək areanasının yaradılması üçün araşdırmalar aparmaq, turizm mərkəzlərinin təşkil edilməsi baxımından imkanların öyrənilməsi və kanat xətlərinin çəkilməsi bu sahənin inkişafı üçün vacib tədbirlərə aiddir. Bu istiqamətdə imkanlar Səhidan dağı ətəklərində, Yaqub Sultan, Bilqeys, Maku, Xoy, Mahabad yüksəklikləri zonasında da vardır. Onlardan istifadə edilməsi yolları müəyyən edilməlidir.

Regionda yerləşən mağaralardan turizm təsərrüfatında istifadə edilməsi imkanları böyükdür. Onlara Kəbutər, Ağbulaq, Digican və İsgəndər mağaraları aiddir. Mağaralar mühüm geoloji-geomorfoloji təbiət abidələridir. Ona görə turizm təsərrüfatında istifadə edilməsi üçün bu ərazilərdə infrastruktur obyektlərinin yaradılması, yolların çəkilməsi lazım gəlir.

Dağlararası dərələr regionda turizm mərkəzlərinin yaradılması üçün əlverişli yerlər hesab olunur. Burada olan əlverişli geoloji-geomorfoloji və təbii-iqlim şəraiti imkanlarından istifadə etmək olar. Səidabad, Liqvan, Şirvan, Vərəzqan, Şəhərçay, Peyğam, Eynalı, Şahrud dərələri belə mərkəzlər kimi seçilə bilər.

Regionun iqlim şəraiti turizm sənayesinin inkişafı üçün çox əlverişlidir. Yayın isti və quru keçməsi uzun müddət ərzində turistlərin qəbul edilməsinə, onların istirahətinin təşkilinə, bir neçə bölgədə və şəhərdə qalmalarına imkan verir. Havanın temperaturu və rütubət göstəricilərinə görə turistlərin qəbul edilməsi üçün əlverişli şərait vardır.

Hidroqrafik şəbəkə tədqiqat obyektində ən mühüm turizm mərkəzlərinə aiddir. Onlara Xəzər dənizi, Urmiya gölü, çaylar, şəlalələr, çoxsaylı bulaqlar, o cümlədən mineral bulaqlar, ovdanlar aiddir. Xəzər dənizinin hövzəsinə daxil olan ərazilər 177 min km$^2$, Urmiya gölü hövzəsinə aid olan ərazilər 53 min km$^2$-dir. Tədqiqat obyektində axan çayların çoxu turizm təsərrüfatında istifadə edilə bilər. Çayların sahilləri boyu yaşıllıqlar, dərələr, onların üzərində olan su anbarları mühüm turizm mərkəzləri kimi istifadə edilə bilər. Zərinə və Simini çayları asta qayıq sürmək, Zabe Kuçək isə sürətli qayıq sürmək üçün uyğun şəraitə malikdir.

İsti və quyu sularının turizm-rekreasiya əhəmiyyəti çoxdur. Burada saysız-hesabsız isti su mənbələri, mineral bulaqlar və mədən suları səthə çıxan yerlər vardır. Onların hər biri özünəməxsus xüsusiyyətləri və müalicə

əhəmiyyəti ilə seçılir. Sirab, Həftabe, Sine Çeşme, Zinad Süleyman və başqa ərazilərdə mineral sular səthə çıxır. Kəndovan, Bukan, İşliq, Şorbulaq, Zarean, Dəste Dərə, Menas, Ərəb Dizəc, Sedqian, Nəvayi, Razı və Səhənd dağının ətəklərində, Səreyndə, Bilədərədə, Buşluda olan yeraltı su mənbələrindən istifadə edilməsi üçün xüsusi layihələr həyata keçirilməsi lazımdır.

Süni su hövzələri, şəlalələr regionun mühüm turizm ehtiyatlarıdır. Şəbüstərin Eyşabad şəlaləsi, Culfada Xaraba Dəyirman şəlaləsi, Salmas şəlaləsi, Gurgur şəlaləsi xüsusi gözəlliyi, təbii şəraiti, cəlbediciliyi ilə fərqlənir. Lakin bu mərkəzlərdən istifadə edilməsi üçün zəruri şəraitin yaradılması, yollar çəkilməsi, xidmət obyektləri şəbəkəsinin təşkili lazımdır.

Urmiya gölü təkcə şimal-qərb ostanlarında deyil, eyni zamanda bütün regionda ən böyük su hövzələrindən biridir. Ona görə turizm təsərrüfatının inkişafında ondan bir neçə istiqamətdə istifadə etmək olar. İlk növbədə sahillərdə turizm təsərrüfatına aid müxtəlif xidmət sahələrinin yaradılması imkanları vardır. Şərəfxana limanı sahil kompleksi regionun mühüm turizm mərkəzi ola bilər. Göldə eyni zamanda çimərlik, üzgüçülük, qayıqla idman arenasının yaradılması, müalicəvi palçıqlardan istifadə edilməsi əsasında istirahət-turizm mərkəzlərinin infrastruktur təşkil edilməsi mümkündür.

Burada Rəhmanlı, Qubadlı və Zinətli limanları, çoxsaylı adalar (Kəbudan və s.), Göyərçin qala, Qalqacı, Ag ziyarət, Kazım daşı, Qaraqışlaq sahil komplekslərində mühüm əhəmiyyəti olan turizm mərkəzləri fəaliyyət göstərə bilər. Lakin son vaxtlarda gölün ətrafında yaranan ekoloji vəziyyət turizmin inkişafında ciddi problemlər yarada bilər.

Regionun təbii-landşaft kompleksləri qorunan ərazilər və milli parklar turizm təsərrüfatının formalaşmasında əhəmiyyətli rol oynayır. Şəhərlərin ətrafında olan yaşılılqlar, Əhər, Marağa, Ərəsbəran, Şərdəşt, Piranşəhr, Həştrud, Mərənd, Miyanə, Sufiyan, Fındıqlı və Xalxalda olan meşə sahələrini genişləndirmək və istirahət zonaları yaratmaqla təbii-landşaft kompleksləri kimi turizm təsərrüfatında istifadə edilə bilər. Maku şəhərinin şimalında Mərəkan qoruğu, Kəleybərdə Ərəsbəran qoruğu, Ərdəbildə Neur qoruğu, Araz çayının sahillərində Kiyaməki qoruğu yaradılmışdır. Onlar turizm təsərrüfatının əsas mərkəzləri sırasına daxil edilməlidir.

Turizm təsərrüfatının formalaşması və inkişafında iqtisadi-coğrafi və sosial-mədəni potensial mühüm rol oynayır. Turizm təsərrüfatın mühüm sahələrindən biri olmaqla bərabər digər sahələrlə qarşılıqlı əlaqədə inkişaf edir. Turizm təsərrüfatının inkişafı kənd təsərrüfatı məhsullarının becərilməsinə, yüngül və yeynti məhsullarının istehsalının artırılmasına,

tikinti kompleksinin fəaliyyətinin genişlənməsinə, infrastruktur və xidmət obyektlərinin davamlı inkişafına imkan verir.

Turizm təsərrüfatının inkişafında şəhərlər, onların tarixi-coğrafi inkişaf xüsusiyyətləri, burada olan tarixi-mədəni, memarlıq abidələri əhəmiyyətli rol oynayır. Şəhərlər turizmin əsas inkişaf mərkəzləri, infrastruktur və xidmət obyektləri şəbəkəsinin yüksək inkişaf etdiyi ərazilərdir.

Məhz şəhərlərdə xarici və yerli turizm sahələrinin inkişafı üçün iqtisadi-mədəni potensial, maliyyə mənbələri, ixtisaslı kadrlar toplanır. Onlardan səmərəli istifadə edilməsi bu sahənin davamlı inkişafının əsas istiqamətlərindən biridir. Regionun ən mühüm turizm mərkəzlərinə Təbriz, Urmiya, Ərdəbil, Marağa, Kəleybər və s. şəhərlər aiddir.

Dissertasiyanın ikinci fəsli "**İranın şimal-qərb ostanlarında turizmin ərazi təşkilinin müasir vəziyyəti"nə** həsr edilmişdir. Onun əvvəlində bütövlükdə ölkənin turizm təsərrüfatının inkişafı və bu sahədə şimal-qərb ostanlarının rolundan danışılır. Regionun təbii-coğrafi şəraiti və sərvətləri, tarixi-coğrafi inkişaf xüsusiyyətləri onun iqtisadi-sosial və mədəni inkişafı üçün əlverişli şərait yaradır. Belə vəziyyətdə regionda turizm təsərrüfatının fəaliyyəti üçün də kifayət qədər potensial, infrastruktur şəbəkəsi yaradılmışdır. Təbii-coğrafi və tarixi-mədəni turizm obyektləri bütün ölkə ərazisində kifayət qədərdir, onlardan istifadə edilməsi istiqamətində kifayət qədər tədbirlər görülür.

İİR-də turizm təsərrüfatının fəaliyyəti üçün bütün dünyada məşhur olan tarixi-memarlıq və arxeoloji abidələr vardır. İran tarixinin qədim dövrünə aid Fars ostanında (Təxti-Cəmşid, Pasarqad və Nəqşi-Rüstəm) saraylar, məbədlər və binalar, Kaşanda Siyəlk təpəsi, Damqanda Hasar təpəsi, Həmədanda Akbatan və s. abidələr qalmışdır.

Regionun təbii-coğrafi turizm obyektlərinin öyrənilməsi dissertasiyada xüsusi tədqiq olunan istiqamətlərdən ibarətdir. Şərqi Azərbaycan, Qərbi Azərbaycan və Ərdəbil ostanlarının təbiəti turizmin inkişafı üçün bir çox cəlbedici xüsusiyyətlərə malikdir. Yaz və yay fəsillərində iqlimin mülayim və sərin olması insanların istirahəti, mədəni-sosial ehtiyaclarının ödənilməsi üçün əlverişli şərait yaradır.

Şimal-qərb ostanlarında mövcud olan təbii-coğrafi obyektlər tədqiqat ərazisində qeyri-bərabər paylanır (**Şəkil 1**). Təbii-coğrafi şərait, yəni relyef, geoloji-geomorfoloji quruluş, temperatur şəraiti və yağıntıların miqdarı, torpaq-bitki örtüyündə olan fərqlər turizm obyektlərinin ərazi üzrə paylanmasına da ciddi təsir göstərir. Bu obyektlərin yerləşdiyi ərazilərdən, mütləq hündürlükdən, nəqliyyat yollarından, mövcud olan abadlıq şəraitindən, xidmət obyektləri şəbəkəsinin mövcudluğundan, şəhərlərə

yaxınlıqdan, turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlərdən, ayrılan maliyyə vəsaitlərindən asılı olaraq müxtəlif səviyyədə istifadə edilir.

**Şərqi Azərbaycan ostanında** istifadə edilən və istifadəsi mümkün olan təbii-coğrafi turizm obyektlərinə aşağıdakılar aiddir. Qurugöl dəryaçası, Səhənd, Sultan Səncər və Mişovdağ zirvələri, İsgəndər və Qədəmgah mağaraları, Liqvan və Səidabad dərələri, Taptapan və Abmədən bulaqları, Urmiya gölü **Təbriz nahiyəsində** mühüm turizm mərkəzləridir. **Əhər nahiyəsində** Dibsiz və Xarmalı ovdanları, Kəmtal və Qoşadağın yamaclarında olan şəlalələr, meşələr, çəmənliklər, səfalı hava şəraiti mühüm istirahət və müalicə mərkəzləri kimi istifadə edilə bilər. **Bostanabad nahiyəsində** Ağbulaq mağarası, İstisu bulağı, **Bənab nahiyəsində** Qubadlı ovdanı, Urmiya gölünün sahilləri boyu ərazilər və göldə olan adalar, Sərab şəhərinin ətrafında olan mineral bulaqlar istifadə edilir. **Kəleybər nahiyəsində** Peyqam dərəsi və Ərəsbəran qoruğu yerləşir. **Marağa nahiyəsində** Səhənd zirvəsi ətrafında Alma gölü, Qaraqışlaq ovdanları, Vərcu, Qoşayaş bulaqları, Kəbutər mağarası, **Culfa nahiyəsində** Xaraba Dəyirman şəlaləsi, Kəyaməki zirvəsi və onun ətrafında eyni adlı qoruq turizm mərkəzlərinə aid edilir. **Mərənd nahiyəsində** Mişov dağının yamaclarında Mişov şəlaləsi, şəhərin ətrafında Zənur alma bağları, Sufilər bulağı, Dugican mağarası turizm obyektlərinə aiddir. Ostanın **Miyanə, Heris, Həştrud nahiyələrində** olan ovdanların yerli əhali üçün turizm əhəmiyyəti vardır.

**Qərbi Azərbaycan ostanına** daxil olan **Urmiya nahiyəsində** turizm təsərrüfatının təşkil edilməsi üçün çoxsaylı təbii-coğrafi turizm obyektləri vardır. Onlar arasında Urmiya gölünün sahilboyu əraziləri, adalar, sahil boyu Milli Parklar, Zənbil, Həftabə, Qinərcə, Daniel, Qarayaxtı və Fərhad mağaraları seçilir. **Təkab nahiyəsində** Qeybabad, Kəhl, Kərəftu, Kəhriz mağaraları, **Maku nahiyəsində** Ağgül, Eşqabad, Qarabulaq, Yarımqaya, Sarısu ovdanları, Şegofti, Ərəb Dizəc mineral bulaqları, Cuq qalası şəlaləsi, Araz çayı sahillərində Mərakan və Ağgül qoruqları, Ağgül ov ərazisi, Sutabad, Beş kəndi mineral bulaqları, Mirdavud mağarası yerləşir. Ostanda turizm əhəmiyyətli obyektlərə **Mahabad nahiyəsində** Böyük və Kiçik Bumik, Fəqarqa, Rakad mağarası, **Miyandoab nahiyəsində** Qaragül və Yəsrilabad ovdanları, Süleyman "Zindanı" mineral bulağı, Əhmədabad çökəkliyi aiddir. **Sərdəşt nahiyəsində** Girov bulağı və Səlmas şəlaləsindən istifadə edilməsi üçün yollar çəkilməsi, xidmət obyektləri yaradılması lazımdır.

**Ərdəbil ostanı** regionun şərqində yerləşir. Ostanda turizm təsərrüfatında istifadə edilən təbii-coğrafi obyektlər kifayət qədər olsa da onlar arasında hidroqrafik şəbəkəyə daxil olan göllər, ovdanlar, mineral bulaqlar və şəlalələr üstünlük təşkil edir. **Ərdəbil nahiyəsində** Neur, Şorabil gölləri, Gənəgah, Molla Məhəmməd, Nuşar, Şorgöl ovdanları, Belədərə, Boşlu bulaqları bu sahədə əhəmiyyətli yer tutur. **Meşginşəhr nahiyəsində** Qotursu, Qinrəcə və İlavənd bulaqları istirahət zonaları yaradılmasında istifadə edilir. **Xalxal nahiyəsində** çoxlu sayda bulaqlar vardır.

İranın şimal-qərb ostanlarının mədəni-tarixi turizm obyektləri və onlardan turizm təsərrüfatında istifadə edilməsi dissertasiyada xüsusi yer tutur. Regionun bir neçə minillik tarixi ərzində yaradılan füsunkar maddi və mənəvi sənət abidələri turizm təsərrüfatının inkişafında mühüm əhəmiyyət kəsb edir. Bu qrupa aid abidələrə tarixi mağaralar və təpələr, daş kitabələr, qəsrlər, qalalar, saraylar, məscidlər, körpülər, bazarlar, hamamlar, sənət-karlıq və incəsənət əsərləri aiddir. Tarixi memarlıq abidələri əsasən qədim şəhərlərdə yerləşir. Lakin hər bir ostanın özünəməxsus xüsusiyyətləri vardır.

Dissertasiyada Şərqi Azərbaycan, Qərbi Azərbaycan və Ərdəbil ostanlarında olan mühüm mədəni-tarixi abidələr haqqında məlumat verilir. Onlar arasında mixi və Pəhləvi xətləri ilə olan qayaüstü yazılar, divarlarda döyülən şəkillər, dini abidələr, qəbirüstü daş abidələri, ticarət mərkəzləri əhəmiyyətinə görə fərqlənən ən mühüm turizm mərkəzləridir (**Şəkil 2**).

**Şərqi Azərbaycan ostanının** inzibati mərkəzinin də yerləşdiyi **Təbriz nahiyəsində** əsas turiozm obyektlərinə Əli gölü və Rubi Rəşidi İmarətləri, Məşrutiyyət evi, Şəhər bazarı, Əhər **nahiyəsində** Araz çayının sahillərində hamam, Əhər şəhərində Qədim bazar, Şah Abbas xanagahı, Cümə məscidi daxildir. **Vərzqan nahiyəsində** Guşən qalası, Şəngədəl qayaüstü yazıları kimi mühüm turizm obyektləri vardır. **Bənab nahiyəsində** Zəhhak qalası, Mehrabad məscidi, **Sərab nahiyəsində** Ayı, Cuq qalaları, tarixi-arxeoloji təpələr, Nəstəvan qayaüstü yazıları, nahiyənin şimal-şərqində "Qırx qızların qaldırdığı daşlar" adlanan abidələr kompleksi vardır. Əsəq, Böyük İmamzadə, Camalabad, Cümə məscidləri əhəmiyyətinə görə fərqlənir.

**Şəbstər nahiyəsinin** Sis kəndində abidələr, Təsuc Cümə məscidi, Şeyx Məhəmməd Şəbstərinin məqbərəsi, **Kəleybər nahiyəsində** Cümhur (Babək), Pəştu, Peyğam, Novdi, Qəhqəhə qalaları, Xudafərin körpüsü, Hurand qəsəbəsində "Əjdaha daşı" təpələri yerləşir. **Marağa nahiyəsinin** zəngin tarixi keçmişi burada çoxsaylı tarixi abidələr, məscidlər, minarələr, məqbərələr, tarixi-memarlıq əhəmiyyəti olan binaların qorunub

saxlanmasına imkan vermişdir. **Nahiyədə** Qızlar qalası, Molla Rüstəm, Məzələddin, Şeyx Baba, Ətaallah məscidləri, Göy Bürc məqbərəsi, **Culfa nahiyəsində** Sen Stepanyus kilsəsi və Kiyaməki qalası, **Mərənd nahiyəsində** Sinsard qalası, Payyam karvansarası, Cümə, Bazar məscidləri, **Miyanə nahiyəsində** Qız körpüsü, şəhər çayı üzərində Dəmiryolu, Türk məscidi turizm turizm təsərrüfatında istifadə edilir.

**Qərbi Azərbaycan ostanında** olan tarixi-mədəni və arxeoloji-memarlıq abidələri kifayət qədər çoxdur. Burada olan tarixi şəhərlərdə, dağlarda olan əlverişli ərazilərdə kifayət qədər qalalar, tarixi yaşayış məskənləri və tikililər vardır. Onların əsas hissəsi **Urmiya nahiyəsində** yerləşir. Cahar Bürc İmarəti, İsmayıl Ağa qalası, Burduk, Du Dom, Bəxşi qalaları, Şəhər bazarı, Urmiya şəhərində Muzey, Urmiya Universitetində olan Tibb Tarixi Muzeyi, Qədim Kürdlü Təpəsi, Doqquz Pillə soyuducusu, Cümə, Sərdar, Minarə məscidləri, **Təkab nahiyəsində** Taxtı-Süleyman qalası mühüm tarixi-mədəni abidələrdir və turizm təsərrüfatının əsas mərkəzləridir. **Xoy nahiyəsində** turizm obyektlərinin sayı kifayət qədər çoxdur, onlardan bu sahədə səmərəli istifadə edilməsi və qorunması vacib vəzifə kimi qarşıda durur. Bəstam, Belvərabad qalaları, Xatun körpüsü, Daş Darvaza, Qədim Bazar, Şəms Təbrizi minarəsi, Mətləb xan, Molla Hüseyn, Seyyid Sühadə məscidləri, Surep Sarkis və Məhləzan kilsələri nahiyədə olan tarixi-mədəni mərkəzlərə aid edilir. **Salmas nahiyəsində** Camalabad Səddi, Gurçin qalası, Xan taxtı, Sens Corc kilsəsi yerləşir. **Maku nahiyəsinin** zəngin tarixi keçmişini əks etdirən abidələr burada kifayət qədərdir. Onların əksəriyyəti hazırda regionda turizmin inkişaf etdirilməsi üçün əhəmiyyətlidir. **Nahiyədə** Qara qala, Rauz qalası, Rusa şəhərinin ətrafında qayaüstü yazıları, Cuq bağçası sarayı əhəmiyyətinə görə fərqlənir. **Ostanın Çaldıran nahiyəsində** Zozor kilsəsi (Barun kəndində), Culfa şəhərinin şimal-qərbində Şamdərəsi kilsəsi, **Mahabad nahiyəsində** Manna şəhərinin xarabalıqları (Əndərqaş), Cümə məscidi, Budaqus-Soltan məqbərəsi qorunur. Urmiya gölünün cənub-qərbində Kəlişin kitabələri vardır. Nəqdə şəhərinin şimal-şərqində Həsənli adlanan qədim təpəlik vardır.

**Ərdəbil ostanı** zəngin mədəni-tarixi abidələrə görə seçilir. Regionun tarixi keçmişinin yadigarı olan bu abidələrin çoxu hazırda da qorunur, turizm təsərrüfatında istifadə edilir. Onların əsas hissəsi Azərbaycanın ən qədim şəhərlərindən biri olan **Ərdəbil şəhərində** və ətraf zonalarda yerləşir. Buraya körpülər (Süleyman, Kəlxoran, Seyyidabad, Yuaqubiyyə, İbrahimabad), hamamlar (Pir Zərgər, Pir Əbdülməlik, Hacı Şeyx, Molla Hadi), qəbristanlıqlar, minarələr aiddir. Seyid Haşim İbrahiminin, Hacı

Yusif Sadiqi Ağanın, Hacı Mirzə İbrahim Sadiqinin evləri, Cümə və Mirzə Əli Əkbər Müctehid məscidləri, Əmin Ələddin Cəbrailin məqbərəsi, Şeyx Səfiyyədin Ərdəbilinin məqbərəsi, Müqəddəs Məryəm kilsəsi turizm mərkəzlərinə aiddir.

Ərdəbil ostanında olan digər turizm obyektlərinə Farsabad şəhəri yaxınlığında olan Oltan kəndində tikilmiş Oltan qalası, Qaralıca bürcü, Germi şəhərinin yaxınlığında yerləşən Şeyxlər kəndi ətrafında Xarman təpəsi daxil edilir.

Dissertasiyanın üçüncü fəsli "**Turizmin səmərəli ərazi təşkili və perspektiv inkişaf istiqamətləri"nə** həsr edilmişdir. Regionda turizmin davamlı inkişafının əsas yollarının müəyyən edilməsi vacib vəzifə kimi qarşıda durur. Regionda turizmin inkişaf etdirilməsi üçün ilk növbədə yerlərdə olan turizm əhəmiyyətli mərkəzlərdə müasir tələblər səviyyəsində infrastruktur obyektləri şəbəkəsi, sosial-mədəni xidmət obyektləri təşkil etmək, yüksək səviyyəli xidmət göstərmək üçün şərait yaratmaq lazımdır. Aparılan araşdırmalar, əldə edilmiş məlumatlar, onların elmi-praktiki əhəmiyyətinin dəyərləndirilməsi və əldə olunan nəticələr regionun turizm təsərrüfatının inkişaf etdirilməsi prosesində nəzərə alınmalıdır.

Dissertasiyada göstərilir ki, İranın şimal-qərbində turizmin davamlı inkişafının təmin edilməsi, daim yeni turizm obyektlərinin təsərrüfat dövriyyəsinə cəlb edilməsi üçün yeni İnkişaf Proqramlarının qəbul edilməsi zəruridir. Burada həyata keçirilməsi nəzərdə tutulan layihələrin əsas xüsusiyyətləri və fərqləndirici əlamətləri təhlil olunur. Bu əlamətlərə xarici və daxili turizmin inkişafı istiqamətində tədbirlərə geniş yer verilməsi aiddir. Daim yeni turizm obyektlərinin təsərrüfat dövriyyəsinə cəlb edilməsi Proqram layihələri əsasında həyata keçirilməlidir. Ostanlarda turizm təsərrüfatının inkişafı üçün xarici turistlərin ölkəyə cəlb olunması regionda iqtisadiyyatın inkişafına müsbət təsir göstərir, onların maliyyə mənbələri genişlənir. Belə vəziyyətdə regionun iqtisadi potensialının güclənməsi müəyyən vaxtdan sonra əksinə təsirin də güclənməsinə imkan verir.

Turizmin inkişafı üçün təbliğat işlərinin genişləndirilməsi, şəhərlərin xəritəsinin hazırlanması, radio-televezor yayımları, turizm mərkəzləri haqqında təbliğat kitabçalarının çap olunması məqsədəuyğundur. Təbii-coğrafi şərait və obyektlərdən istifadə edilməsi üçün ərazilərin təbii tarazlığının qorunması, təbiəti mühafizə işlərinin görülməsi, dini və mədəni-tarixi obyektlərin qorunması, təsərrüfatın idarə edilməsi, bu sahəyə cəlb edilən müştərilərin sayının artırılması üçün zəruri olan tədbirlər üçüncü fəslin əsas hissəsini təşkil edir.

Turizmin inkişafı sərmayə qoyuluşu və xüsusi layihələrin həyata keçirilməsindən asılıdır. Yerli və xarici sərmayələrin cəlb edilməsi, bu sahənin inkişafında onlardan istifadə edilməsi, təşkilat, təbliğat, dünya ölkələrinə inteqrasiya etmək sahəsində olan problemlərin müəyyən edilməsi və aradan qaldırılması istiqamətində tədbirlərin müəyyən edilməsi dissertasiyada əsas diqqət yetirilən məsələlərdir. Bu sahənin inkişafı üçün kadrların hazırlanması təbliğat işlərinin təşkili, ekoloji tarazlığın qorunması, qalalar, saraylar, bazarlar, məscidlər, məqbərələr və s. dini abidələrin qorunması və mühafizəsi yolları dissertasiyada geniş tədqiq edilir, onlardan səmərəli istifadə edilməsi sahəsində zəruri olan tədbirlər müəyyən edilir, layihələr verilir.

Turizmin inkişafı üçün infrastruktur və xidmət obyektləri şəbəkəsinin böyük əhəmiyyəti vardır. Turizm təsisatlarına bütün infrastruktur obyektləri, burada istifadə edilən və fəaliyyət göstərən obyektlər daxildir. Mehmanxanalar, qonaq evləri, xidmət və ticarət mərkəzləri, kustar məhsulların keyfiyyətli hazırlanması, avtomagistralların yenidən qurulması, yüksək keyfiyyətli xidmət göstərən mehmanxanalar, qonaq evləri tikilməsi vacibdir. Dissertasiyada tikilməsi vacib olan turizm və xidmət mərkəzlərinin yeri göstərilir və əsaslandırılır. Bu tədbirlər turizm təsərrüfatının davamlı inkişafında əsas istiqamətlər hesab edilir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

İİR-in zəngin təbii-coğrafi şəraiti və tarixin sınaqlardan çıxmış tarixi-mədəni, memarlıq və arxeoloji abidələri turizm təsərrüfatının inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Bu mərkəzlərdən səmərəli istifadə edilməsi, qorunub saxlanması sahəsində aparılan tədqiqatlar əsasında aşağıdakı nəticələri söyləmək olar:

1) Beynəlxalq inteqrasiya ölkələr arasında maliyyə-kredit, iqtisadi və təhsil əlaqələrinin genişlənməsinə imkan verir. Nəticədə istirahət və müalicə məqsədləri ilə yanaşı işgüzar, ticarət, xidmət göstərilməsi sahələrində də turizm səfərlərinə çıxanların sayı getdikcə çoxalır.

2) İİR-in ətrafında baş verən istimai-siyasi və iqtisadi-mədəni dəyişikliklər, xüsusilə şimal sərhədlərində yeni müstəqil dövltlərin yaranması, onların milli-etnik, dil, tarixi inkişaf cəhətdən yaxınlığı iqtisadi əlaqələrin genişlənməsi ilə yanaşı mədəni və turizm əlaqələrinin də artmasına səbəb olmuşdur.

3) Turizm təsərrüfatının inkişafı ölkənin sosial-iqtisadi və mədəni inkişafında, onun tarixi, mədəniyyəti, adət-ənənələri, digər xalqlar arasında

tanıdılması və təbliğində mühüm rol oynayır. Bu sahənin inkişafı, sosial-mədəni xidmət, nəqliyyat infrastrukturu sahələrinin inkişafına, əhalinin iş yerləri ilə təmin edilməsinə, daxili istehlak bazarının inkişafına səbəb olur. Eyni zamanda bu sahənin inkişafı üçün istifadə edilən tarixi-mədəni və memarlıq abidələri qorunub saxlanılır, onların tarixi öyrənilir və təbliğ edilir.

4) İranın şimal-qərbində turizm təsərrüfatının inkişafında təbii-coğrafi şərait və təbiət obyektləri xüsusi rol oynayır. Xarici və daxili turistlərin regiona cəlb edilməsi, bu sahəyə aid obyektlər şəbəkəsi yaradılması üçün relyef, təbii-iqlim şəraiti, hidroqrafik şəbəkənin əhəmiyyəti çoxdur. Regionda qışda uzun müddət davam edən qarlı günlər qış-idman növlərinin yaradılmasına imkan verir. Bu imkanlardan istifadə etmək üçün infrasyruktur şəbəkəsi yaradılması zəruridir.

5) Urmiya gölü regionda ən mühüm su hövzəsidir. Turizm təsərrüfatının inkişafı üçün onun sahillərdə turizm təsərrüfatına aid müxtəlif xidmət sahələrinin yaradılması imkanları vardır. Göldə çimərlik, üzgüçülük, qayıqla idman arenası yaradılması, müalicəvi palçıqlardan istifadə edilməsi əsasında istirahət turizm mərkəzləri təşkil edilməsi mümkündür. Lakin onun səviyyəsinin azalması və yaranan ekoloji gərginlik bu sahədə əsas problem olaraq qalır.

6) Şəhərlərin ətrafında olan yaşılılqlar, Əhər, Marağa, Ərəsbəran, Şərdəşt, Piranşəhr, Həştrud, Mərənd, Miyanə, Sufiyan, Fındıqlı və Xalxalda olan meşə sahələrini genişləndirmək və istirahət zonaları yaratmaqla təbii-landşaft kompleksləri kimi turizm təsərrüfatında istifadə edilə bilər. Maku, Kəleybər və Ərdəbil şəhərlərinin ətrafında yerləşən yaşıllıq sahələri, Araz çayının sahillərində yaradılmış Kiyaməki qoruğunun turizm təsərrüfatında istifadə edilməsi üçün xüsusi layihələrin həyata keçirilməsi lazımdır.

7) Turizm təsərrüfatının inkişafında şəhərlər, onların tarixi-coğrafi inkişaf xüsusiyyətləri, burada olan tarixi-mədəni, memarlıq abidələri əhəmiyyətli rol oynayır. Şəhərlər turizmin əsas inkişaf mərkəzləri, infra-struktur və xidmət obyektləri şəbəkəsinin yüksək inkişaf etdiyi zonalardır. Məhz şəhərlərdə xarici və daxili turizm sahələrinin inkişafı üçün iqtisadi-mədəni potensial, maliyyə mənbələri, ixtisaslı kadrlar toplanır. Onlardan səmərəli istifadə edilməsi bu sahənin davamlı inkişafının əsas istiqamət-lərindən biridir. Regionun ən mühüm turizm mərkəzlərinə Təbriz, Urmiya, Ərdəbil, Marağa, Kəleybər və s. şəhərlər aiddir.

**Dissertasiyanın mövzusu üzrə çap edilmiş elmi əsərlər:**

1. Zendehdel H.M. Kənd turizminin potensialı və İran İslam Respublikasında onun inkişaf istiqamətləri // AMEA Xəbərləri, "Yer elmləri bölməsi", 2013, № 2, səh. 77-83 (Z.N.Eminov ilə birlikdə).
2. Zendehdel H.M. Cənubi Azərbaycanda turizmin inkişafında təbii-coğrafi amillərin rolu // Azərbaycan DPU-nun "Xəbərləri", Təbiət elmləri bölməsi. Bakı: 2012, № 1, səh. 113-118. (Y.Q. İsmayilov ilə birlikdə).
3. Zendehdel H.M. Cənubi Azərbaycan ostanlarının tarixi-etnoqrafik inkişaf xüsusiyyətləri və onların turizm potensialı / Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, XVII cild. Bakı: 2012, səh. 456-461.
4. Zendehdel H.M. Contemporary situation and problems in tourism industry of İslamic Republic of İran. International Journal of humanities and Social Science. Vol. 3 No. 8, April, 2013, p. 299-302.
5. Zendehdel H.M. Cənubi Azərbaycanda təbii-coğrafi və mədəni-tarixi turizm obyektləri / "Qloballaşma və coğrafiya" mövzusunda beynəlxalq elmi-praktik konfrans. Azərbaycan Coğrafiya Cəmiyyəti. Bakı: 2012, səh. 655-660.
6. Zendehdel H.M. İnkişafın planlaşdırılmasında ətraf mühitin rolu / Kənd Təsərrüfatı Nazirliyi nəzdində Əhalinin Təşviqi və Əməkdaşlıq İdarəsi. "Cihad" jurnalı, № 161, Xordad: 1992 (1372).
7. Zendehdel H.M. Həmədanın Əlisərd və ya Əlisədr mağarası / Mədəniyyət və İrşaqi-İslami Nazirliyinin Turizm İdarəsinin orqanı. "İranzəmin" jurmnalı, Tehran: 1979, №1.
8. Zendehdel H.M. National Strategy for Environment and Sustainable Development (NSESD) // The World Bank and the United Nations Development Programme. Tehran: 1993. 24 s. (A. Gerami, H.Majedi, M.Motamedi, H.Rahimi-Farzan, M.Safarian və E.Xarrat-Zabardast ilə birlikdə).
9. Zendehdel H.M. İrana turist səyahəti edənlər üçün bələdçi kitabçası. 28 cild, 1998-2000.
10. Zendehdel H.M. İran Travel Map. Tehran: 2009, p.174.
11. Zendehdel H.M. İran kəndlərinə turist səyahətləri üçün bələdçi kitabçası. 8 cilddə. Tehran.
12. Zendehdel H.M. İrana bir baxış. Tehran: 2009. 101 s., (Fars, ərəb, ingilis, fransiz, alman və rus dillərində).

**Гасан Зендехдел Магомед оглы**

# Основные направления развития туризма в северо-западных останах Исламской Республики Иран

Диссертация посвящена современному состоянию, развитию и проблемам туристической индустрии северо-западных останов ИРИ, в состав которого входят Ардебильский, Восточно-Азербайджанский и Западно-Азербайджанский останы.

Целью данной диссертации является изучение природного, исторического и культурного потенциала региона и возможности его использования в туристической индустрии, развитие инфраструктуры и отраслей социально-культурного обслуживания, а также основных проблем в развитии этой отрасли.

Научной новизной диссертации является оценка природно-климатических, социально-экономических и историко-культурных ресурсов для комплексного развития туристического хозяйства в северо-западных останах ИИР. Определены туристические ресурсы, центры дальнейшего развития туризма, современное состояние их использования и потенциальные возможности создания новых туристических центров. Также выявлены основные проблемы в развитии туристической индустрии, разработаны специальные проекты по дальнейшему развитию этой отрасли хозяйства.

Диссертация состоит из введения, трех глав, выводов и рекомендаций, списка использованной литературы. **Первая глава** посвящена теоретическим и методологическим основам изучения развития туризма и природно-географического потенциала этой отрасли.

**Во второй** главе исследовано современное состояние территориальной организации туризма. Здесь особое место занимает использование природно-географических и историко-культурных объектов в туристических целях. **В третьей** главе изучены основные направления рационального использования природного потенциала, территориальной организации туризма и перспективы его развития. Для развития этой отрасли необходимо создание объектов инфраструктуры и социальной сферы на современном уровне, принятие Государственной Программы по развитию туризма.

По теме диссертационной работы опубликовано 12 работы.

**Hasan Mohammad Zendehdel**

## Main directions of development of tourism in north-western provinces of Iran Islamic Republic

The dissertation is devoted to contemporary condition, development and challenges of tourism industry of north-western part of IR of Iran, namely the provinces of Ardebil, East Azerbaijan and West Azerbaijan.

The aim of dissertation is studying natural, historical, cultural and artificial potentiality of the region from view of tourism as well as development of infrastructure and areas of sociocultural service, and also main problems related to development of this area.

The scientific novelty of the dissertation includes the followings: natural-climatic, socioeconomic, historical and cultural resources have been evaluated from view of complex development of tourism in South Azerbaijan; resources and centers of further development of tourism have been defined; contemporary condition and perspectives of using and creating recreational centers have been reviewed; main problems in development of tourism industry are revealed; special projects on further development of this area have been developed.

The dissertation consists of introduction, three chapters, conclusion and recommendations, and also list of used literature. The first chapter is devoted to theoretical and methodological bases of study of development of tourism as well as natural and geographical potentiality of this area. Contemporary condition and perspectives of territorial organization of tourism have been investigated in the second chapter. The main emphasis is laid on use of natural and geographical as well as historical and cultural objects for tourism purposes. Main directions of rational territorial organization of tourism, and also perspectives of development have been studied in the third chapter. It is necessary for development of the studied area to create up-to-date objects of infrastructure and social sphere as well as adopt the State Program on development of tourism

Three scientific 12 works have been published on the theme of dissertation.

AMEA-nın mətbəəsində çap olunub
Tiraj-100

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ГЕОГРАФИИ им. акад. Г.А. АЛИЕВА**

*На правах рукописи*

**ГАСАН ЗЕНДЕХДЕЛ МАГОМЕД ОГЛЫ**

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ТУРИЗМА В СЕВЕРО-ЗАПАДНЫХ ОСТАНАХ ИСЛАМСКОЙ РЕСПУБЛИКИ ИРАН

5401.01 – Экономическая география

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по географии

**БАКУ - 2014**